Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

2008-ci ilin yanvar ayının 17-də Azərbaycan Respublikasının İndoneziya Respublikasındakı Səfirliyi "Ermənistan-Azərbaycan münaqişəsi" adlı kitab nəşr etdirmişdir.

Bu kitab Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tarixi, Ermənistan Respublikasındakı terrorçu və separatçı qüvvələri və onların Azərbaycana qarşı hərbi təcavüzü barədə məlumatların toplusudur.

Azərbaycanın 20 faiz torpaqlarını təşkil edən Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon on dörd ildən yuxarıdır ki, Ermənistan tərəfindən işğal edilmişdir. Ermənistan tərəfindən aparılmış etnik təmizlənmə siyasəti nəticəsində bir milyondan yuxarı azərbaycanlı qaçqın və məcburi köçkün düşmüşlər. İşğal altında olan bütün sosial, təhsil institutları və mədəniyyət mərkəzləri və irs dağıdılmışdır.

Ermənistan hərbi birləşmələrinin Dağlıq Qarabağda və ətraf yeddi rayonda törətdikləri soyqırım və vəhşiliklərdən sağ qalanlar günahsız və silahsız Azərbaycan vətəndaşlarına qarşı törədilmiş etnik təmizlənmə, qəfil hücumlardan, soyqırımın dəhşətli hadisələrindən danışırlar.

İşğal edilmiş Azərbaycan torpaqları Azərbaycan dövlətinin nəzarətindən və beynəlxalq yoxlamadan kənar nəzarətsiz zonaya çevrilmiş, beləliklə regionda və dünyada sülhə və təhlükəsizliyə daima təhlükə yaradır.

Kitabın bir bölməsi ATƏT-in Minsk Qrupunun sülh prosesinə həsr edilmişdir.

Azərbaycan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsip və normaları tərəfindən tanınmış dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı çərçivəsində, BMT TŞ

822,853, 874, 884 nömrəli qətnamələri, ATƏT-in qərarları əsasında sülh yolu ilə həllinin tərəfdarıdır.

Təqdim edilən kitab beynəlxalq terrorçuların, təcavüzkar millətçilərin və separatçı qüvvələrin təhlükəli olduğunu bir daha beynəlxalq ictimaiyyətə xatırladır.

Kitab İndoneziya və ingilis dillərindədir.

17 yanvar 2008